*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 iyul 2017-ci il № 53 (2170) Qiyməti 25 qəpik


"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 760-VQD nömrəli Qanununun tətbiqi haqqında

**Azərbaycan Respublikası Prezidentinin**

## Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 760-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının müdafiə nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyul 2017-ci il.

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik

## Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



*İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*

AZƏRTAC-ın məlumatına əsasən, dövlətimizin başçısı iclası giriş nitqi ilə açaraq qeyd etdi ki, bütövlükdə Azərbaycan 2017-ci ilin birinci yarısında uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz daha da güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşib.

Dünyada və bölgəmizdə baş verən narahatedici məqamlara toxunaraq Prezident Əliyev razılıq hissilə vurğuladı ki, Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində öz gələcəyini qurur.

Ötən altı ay ərzində ölkəmizin beynəlxalq əlaqələrinin daha da möhkəmləndiyini, Davos və Münxendə keçirilən dünyanın aparıcı iqtisadi, siyasi və təhlükəsizlik konfranslarında Azərbaycanın ləyaqətlə təmsil olunduğunu, Bakıda dünya miqyasında çox dəyərli, səviyyəli bir tədbir olan V Qlobal Forumun, IV Mədəniyyətlərarası Dialoq Forumunun keçirildiyini söyləyən dövlət başçısı vurğuladı ki, bu tədbirlər Azərbaycanın dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini, rəğbətini göstərir.

Artıq dünyada təkcə bir idman ölkəsi kimi deyil, Azərbaycan həm də mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi edən ölkə kimi tanınır. Paytaxtımızda IV İslam Həmrəyliyi Oyunlarının xoş təəssüratları hələ yaddaşlardadır. Həmin yarışlara münasibətini bildirən Prezident qeyd etdi ki, Azərbaycan milli komandası bu Oyunlarda birinci yeri tuta bilmişdir. Bu da bir daha onu göstərir ki, Azərbaycan güclü idman dövlətidir.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik

(Əvvəli 1-ci səhifədə)

Həmişə olduğu kimi, Nazirlər Kabinetinin iclasında da dövlət başçısı Azərbaycanın ağrılı yeri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı söhbət açdı. Azərbaycan rəhbərliyinin xarici siyasətində əsas məsələnin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin olduğunu vurğulayan Prezident təəssüf hissilə bildirdi ki, bu ilin birinci yarısında bu istiqamətdə - danışıqlar istiqamətində heç bir nəticə əldə edilməmişdir. “Bununla bərabər, hesab edirəm ki, 2017-ci ildə münaqişənin həlli ilə bağlı önəmli hadisələr də baş vermişdir və Azərbaycanın haqlı mövqeyi daha da böyük dəyər qazanmışdır. Mən bir neçə faktı Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. İlk növbədə, bu il qondarma separatçı rejim Ermənistanın siyasi rəhbərliyinin təhriki ilə Dağlıq Qarabağda növbəti qondarma, qanunsuz, dırnaqarası referendum keçirmişdir. Bu "referendum"un keçirilməsi əslində onların böyük səhvidir, daha doğrusu, axmaqlığıdır. Onların bir qədər ağlı olsaydı, heç vaxt buna getməzdilər. Çünki bəri başdan bəlli idi ki, dünya birliyi bu qondarma tədbiri tanımayacaq. Belə də oldu. Minsk Qrupu bəyanat verdi, onun həmsədrləri - Amerika, Fransa, Rusiya "referendum"u tanımadılar. Avropa İttifaqı referendumu tanımayıb. Qonşu ölkələr - İran, Gürcüstan "referendum"u tanımayıb. Digər ölkələr də oxşar bəyanatlarla çıxış etdilər. Bu qondarma "referendum"un tanınmaması Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiqləyir. Bütün dünya və münaqişənin həlli ilə bilavasitə məşğul olan ölkələr bu münasibətləri ilə bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həqiqətdir, bu, tarixi həqiqətdir və əlbəttə ki, bu həqiqət bir daha qeyd olundu. Bu, Ermənistanın növbəti biabırçılığı idi".

Aprel hadisələrindən sonra danışıqların bərpa edilməsi üçün Ermənistanın bir neçə şərt irəli sürməyə cəhd etdiyini və bu cəhdin uğursuzluqla nəticələndiyini, nəhayət, danışıqlar prosesinin bərpa edildiyini iclas iştirakçılarının diqqətinə çatdıran ölkə rəhbəri bir daha bəyan etdi ki, danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad



edilməlidir, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim mövqeyimiz bundan ibarətdir. Bundan kənarda heç bir həll yolu mümkün deyil.

Prezident İlham Əliyev həmin hadisələrlə bağlı bir daha xatırlatdı: "2016-cı il martın sonunda Vaşinqtonda nüvə sammitində mən də iştirak edirdim, Ermənistan prezidenti də. O vaxt Ermənistan prezidentinə təzyiqlər göstərilirdi ki, məsələ tezliklə öz həllini tapsın. Danışıqları pozmaq üçün aprel hadisələri törədildi, bizə qarşı təxribat törədildi. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Bu cavab nəticəsində bu gün bizim bayrağımız Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır.

O vaxtdan bu günə qədər danışıqlar aparılmırdı və Ermənistana təzyiq artırdı. Danışıqlara başlamamaq üçün onlar keçən ay növbəti hərbi təxribat törətdilər, bir əsgərimiz həlak oldu. Yenə də Azərbaycan Ordusu onları cəzalandırdı. Azərbaycan Ordusunun zərbəsi nəticəsində bir çox işğalçı məhv edildi. Növbəti təxribat bu ayın 4-də Füzuli rayonunun Alxanlı kəndində baş verdi. Bu, hərbi cinayətdir. Bu, erməni faşizminin təzahürüdür və bu cinayətə görə Ermənistan öz cavabını almışdır. Bu, misli görünməmiş vəhşilikdir. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi.

Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq.

Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycan mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni, Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xisləti siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı".

Danışıqların perspektivlərinə toxunarkən Azərbaycan Prezidenti bildirdi ki, indi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq.

Ölkəmizin təhlükəsizliyinin təminatçısı olan Silahlı Qüvvələr quruculuğunun prioritet vəzifə olduğunu, bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərildiyini, yeni silahların, ən müasir texnikanın alındığını dövlət başçısı iclasda qeyd etdi: "Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu, bizim hərbi potensialımızı daha da artıracaq. Bu gün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Bu il Azərbaycanda iki yeni hərbi zavod fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir".

Dağlıq Qarabağ münaqişəsilə əlaqədar öz doğma yurdlarından didərgin salınmış məcburi köçkünlərin problemləri də dövlət rəhbərliyinin daim diqqət göstərdiyi məsələlərdəndir. Aprel döyüşlərindən sonra Lələtəpə yüksəkliyinin və digər ərazilərin işğalçılardan azad edilməsi kənd sakinlərinin Cocuq Mərcanlıya qayıtmasına imkan yaratdı. Hökumət bu qəsəbənin bərpası və məcburi köçkünlərdən ötrü yeni şəhərciklərin salınması üçün xeyli vəsait ayırdı və qısa zaman kəsiyində yeni yaşayış kompleksi sakinlərin ixtiyarına verildi. Dövlət başçısı görülmüş işlərə dair bildirdi: "Məcburi köçkünlərin problemləri həmişəki kimi bu il də diqqət mərkəzində olubdur. Son illər yüzə yaxın qəsəbə salınmışdır. Ancaq onların arasında bu il açdığımız Cocuq Mərcanlı qəsəbəsi xüsusi yer tutur. Bu, tarixi hadisədir. Bu, bizim şanlı tariximizə qızıl hərflərlə yazılan hadisədir. Biz işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini bərpa etdik. Orada 50 ev, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilib, yol çəkilib, bütün infrastruktur yaradılıb. Ailələr oraya qayıdır. Açılışdan sonra mən növbəti Sərəncam imzaladım. Növbəti 100 evin, tibb məntəqəsinin və digər lazımi obyektlərin tikintisi üçün də vəsait ayrılmışdır. Əminəm ki, gələcək aylarda Cocuq Mərcanlı kəndi tam bərpa ediləcək və bu kəndə tam həyat qayıdacaqdır".

Digər layihələrin də icra edildiyini, Tərtər rayonunda, Sumqayıt və Bakı şəhərlərində həm yeni şəhərciklərin tikildiyini, Qaradağ rayonunda inşa edilən böyük şəhərcikdə min köçkün ailəsinin məskunlaşacağını söyləyən Prezident İlham Əliyev bunu çox gözəl nümunə adlandırdı.

Əlbəttə ki, dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını qeyd edən ölkə rəhbəri bildirdi ki, bütün bu uğurlara nail olmaq üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. “Altı ayın göstəriciləri məni çox qane edir. Qeyri-neft iqtisadiyyatımız altı ayda 1,7 faiz artıb. Bu, çox yaxşı göstəricidir”.

Bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulduğunu, valyuta ehtiyatlarımızın artaraq 40,6 milyard dollar təşkil etdiyini, 122 min yeni iş yerinin açıldığını deyən Prezident İlham Əliyev bunu təkcə bizdə yaxşı investisiya iqliminin olması ilə deyil, həm də Azərbaycanın bu gün sabitlik məkanı olması ilə əsaslandırdı.

Azərbaycan Prezidenti İlham Əliyev həmçinin iclasda yekun nitqi söylədi.

Əldə edilmiş nəticələr və səsləndirilən rəqəmlər, dövlət başçısının sözlərinə görə, deməyə əsas verir ki, bu il inkişaf ili olacaq: “Keçən il iqtisadi, maliyyə sabitləşməsi ili olmuşdur. Bu il isə inkişaf ili olacaq. Əminəm ki, bundan sonrakı illərdə də Azərbaycan öz iqtisadi potensialını daha da gücləndirəcək”.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun RİA Novosti informasiya agentliyinə müsahibəsi

**- Son zamanlar Dağlıq Qarabağdakı təmas xəttində bir neçə insident baş verib. Artıq ekspertlər Azərbaycanla Ermənistan arasında yeni ciddi gərginlik barədə danışmağa başlayıblar...**

- Mülki insanların həlak olduğu Füzuli rayonunun Alxanlı kəndində, son insidentin baş verdiyi yerdə oldum. Bu kənd cəbhədən təxminən üç kilometr aralı məsafədə yerləşir. Özlərinə bəraət qazandırmaq üçün ermənilər deyirlər ki, orada bizim hansısa bölmələrimiz yerləşir. Lakin bölmələr sadəcə olaraq küçədə qərar tuta bilməzlər, onlara infrastruktur lazımdır ki, o da orada yoxdur.

Buna heç ehtiyac da yoxdur. Qoşunların yerləşmə taktikasına və müdafiənin təşkili sisteminə görə bu kəndin heç bir hərbi əhəmiyyəti yoxdur. Buna baxmayaraq, kənd hədəfə alınaraq SPQ-9 tankəleyhinə dəzgahlı qumbaraatandan atəşə tutulub. Bu silahdan, əsasən tank və zirehli texnika ilə mübarizə aparmaq üçün istifadə olunur, lakin onun qəlpəli mərmiləri də var. Daha sonra isə minaatanlardan da iki dəfə atəş açılıb.

Əminəm ki, bu, əvvəlcədən planlaşdırılmış bir cinayətdir. Bu müddətdə orada intensiv atışma olmamışdır. Eyni zamanda bu hadisədən bir neçə gün əvvəl rayon üzərində ermənilərə məxsus kəşfiyyat pilotsuz uçuş aparatı müşahidə edilmişdir. Ermənilər görürdülər ki, bu, dinc əhalisi olan adi bir kənddir. Lakin iki gün keçəndən sonra oraya zərbə endirdilər. Bu cinayətdir!

**- Əgər bu təxribat idisə, bəs onun mənası nə idi?**

- Biz bilirik, onlar nəyə güvənirlər. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olmaqla Ermənistan qurumun digər ölkələrini də öz təxribatlarının əsirinə çevirir. Onlar yaxşı bilirlər ki, əgər heç kəs vəziyyətə qarışmasa, o zaman heç üç gün belə tab gətirə bilməyəcəklər. 2016-cı ilin aprelində artıq bu baş verdi. Əgər bizi o vaxt dayandırmasaydılar, müqavimət artıq qırılacaqdı. Düşmənin uzun illər ərzində qurduğu müdafiə xəttini biz 40 dəqiqə ərzində yardıq.

**- O zaman Qarabağ müharibəsinin artıq yenidən alovlanmasından danışmağa başlamışdılar...**

- Elədir, ən böyük qarşıdurma 2016-cı ilin aprelində baş verdi. Onun da səbəbi mülki əhalinin atəşə tutulması oldu. O zaman, aprelin 1-də Ermənistan tərəfinin Tərtər rayonuna endirdiyi artilleriya zərbəsi nəticəsində bütün bir ailə avtomobilin içində həlak olmuşdu.

Təbii ki, mənə bu barədə məruzə etdilər. Bu təxminən saat 10-11 radələrində baş vermişdir və bu atəş nöqtələri yüksəklikdə yerləşdiyindən bütün kəndi və ətraf əraziləri hədəfə ala bildiyi üçün düşmənin atəş nöqtələrinin yaşayış məntəqələrindən uzaqlaşdırılaraq geri atılması üçün tədbir görülməsinə göstəriş verdim. Bu göstəriş tammiqyaslı müharibənin başlanılması tapşırığı deyildi.

Bunu icra etmək üçün ordumuzun təxminən 15-20 faiz qüvvəsi cəlb olunmuşdu. Mən hətta mərkəzi tabelikdə olan ehtiyat qüvvələri və artilleriyanı belə cəbhəyə göndərmədim. Ermənistan silahlı qüvvələrini yaşayış məntəqələrimizdən geriyə ataraq ordumuz bu tapşırığı yerinə yetirdi. Ermənistan buna elə reaksiya verdi ki, sanki müharibə başlayıb. Onlar bütün silahlı qüvvələrini cəlb etdilər. Yerevandan ehtiyat qüvvələri də cəbhəyə göndərildi. Üç gün onlar bizim mövqelərə hücum etdilər. Amma artıq ikinci günü Rusiyanın müvafiq qurumlarını vasitəçilik işinə cəlb etdilər.

Məsələn, Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu mənə zəng etdi. O, dedi ki, "bu işi" dayandırmaq lazımdır, ölkə rəhbərliyi bu barədə danışacaq. Həmçinin Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Valeriy Gerasimov bizim Baş Qərargah rəisinə zəng etdi.

Sonra məlum oldu ki, Ermənistan tərəfi bununla vaxt udmaq, yenidən qruplaşaraq zərbə endirmək istəyirdi. Lakin bu da alınmadı. Prinsip etibarı ilə qarşıya qoyduğumuz vəzifəni yerinə yetirdik - cəbhədə böyük əməliyyat-taktiki əhəmiyyəti olan iki strateji yüksəkliyi azad etdik. Bunlar Cəbrayıl istiqamətində olan Lələtəpə və Talış yüksəklikləridir.

Ümumilikdə qeyd edim ki, son illər ərzində Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttində gərginlik getdikcə artır. Yeganə səbəb Azərbaycan torpaqlarının işğalıdır. Geridə qalanı isə onun nəticəsidir. İşğal olunmuş ərazilər azad olunmur, danışıqlar heç bir nəticə vermir. Təbii ki, qoşunların qarşıdurma xəttində vəziyyət gərginləşir, hərdən isə lokal döyüş əməliyyatlarına keçir ki, bu da normal haldır. Nə qədər ki, iki düşmən ordu bir-birinə qarşı dayanır, bu baş verəcəkdir. Lakin zərbə məqsədyönlü şəkildə mülki əhaliyə endirilirsə, bu artıq cinayətdir.

**- Münaqişə nə qədər davam edəcək?**

- İqtisadi, demoqrafik və hərbi potensialına görə Ermənistan Azərbaycanla bəhsə girə bilməz. Azərbaycan istər iqtisadi, istər demoqrafik, istərsə də hərbi cəhətdən hər il güclənir. Baxmayaraq ki, hazırda bütün dünyada böhran yaşanır, hansı ki, bizdən də yan keçməmişdir, lakin o bizə ciddi zərər vurmamışdır. Ən azından məni, bir müdafiə naziri kimi, ordunun maliyyələşdirilməsi maraqlandırır ki, o da keçən il artmışdır.

Bu il 17-20 faiz rəqəmi səsləndirilib. Odur ki, Prezident, Ali Baş Komandan başda olmaqla Azərbaycan rəhbərliyi



ordunun güclənməsinə, onun ən yeni silahlarla təchiz edilməsinə böyük diqqət yetirir. Biz keyfiyyətcə yeni səviyyəyə keçmişik. Son illər ərzində ordunun modernləşdirilməsi və gücləndirilməsi barədə tapşırıq qoyulmuşdu.

**- Siz hesab edirsiniz ki, Qarabağ məsələsi hərb yolu ilə həll ediləcək?**

- Mən siyasətçi deyiləm. Bizim ölkə məsələnin sülh yolu ilə həllinin tərəfdarıdır. Lakin bu o demək deyil ki, danışıqlar sonsuz olmalıdır, onlar onsuz da həddən artıq uzanıb. Danışıqlar xatirinə danışıqlar heç kimə lazım deyil.

Bir ətrafa baxın. Beynəlxalq qanunlar artıq işləmir, hamı gücə istinad edir. Təbii ki, biz buna reaksiya verməliyik. Lakin bir daha təkrar edirəm ki, mən siyasətçi deyiləm, hərbçiyəm.

**- Onda hərbi məsələlərə qayıdaq. 2010-cu ilin əvvəlində Azərbaycan ilə Rusiya arasında bağlanan böyük müqavilə hazırda nə yerdədir. O vaxtlar söhbət ümumilikdə dəyəri 5 milyard dollar olan 100 ədəd T-90 tanklarının, 100 ədəd PDM-3 zirehli texnikasının, ÖAQ 2 C19M1 "Msta-S", YARS "Smerç"-lərin Azərbaycana tədarükü və bir çox digər məsələlərdən gedirdi. Bu məbləğ Azərbaycan tərəfindən ödənilib və texnika alınıb?**

- Bu müqavilə demək olar ki, 90 faiz icra olunub. Biz ödənişi etmişik. Xırda hissəsi qalıb. Sizin sadaladıqlarınızın hamısı artıq çoxdan Azərbaycandadır və uğurla tətbiq olunur.

Yeri gəlmişkən, 2016-cı ilin aprelində, o cümlədən bu silahların hesabına uğur əldə etdik. Bütün bunlar bizim mənimsədiyimiz və istifadə etdiyimiz müasir silahlardır.

**- Başqa hansısa bir yeni silah növləri Sizi maraqlandırır?**

- Maraqlandırır, lakin bu barədə mən danışmayacağam.

**- Rusiyanın Suriyadakı əməliyyatı Azərbaycanın ehtiyac duyduğu hərbi texnika nümunələrini Sizə nümayiş etdirdimi?**

- Biz hər zaman vəziyyəti təhlil edir və ən yaxşısını seçirik. Bizim Rusiya ilə hərbi-texniki sahədə çox yaxşı əməkdaşlığımız var. Biz Rusiya Federasiyasından ən son silah növləri alırıq. Əsas diqqəti silahların manevrlilik, güclü zərbə endirmək və daha dəqiq vurmaq kimi xüsusiyyətlərinə yönəldirik. Təfərrüata varmaq istəmirəm.

Ümumilikdə isə, bütün dünyada uğurla və ya əksinə, uğursuzluqla nəticələnən və problemləri üzə çıxaran hərbi münaqişələrin öyrənilməsi üzrə hərbçilərdə qəbul olunmuş bir təcrübə var. Təbii ki, biz Rusiya Federasiyasının Suriyada keçirilən hərbi əməliyyatlardakı təcrübəsini öyrənirik. Mütəxəssislərlə təcrübə mübadiləsi aparırıq. Biz dəfələrlə Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqu ilə fikir mübadiləsi aparmışıq. Və bizim müvafiq komandanlar da söhbətləşiblər. Sağ olsun Rusiya tərəfi ki, bizə material təqdim edib.

Biz bunu öz bölgəmizə uyğunlaşdırırıq. İndi hər şey çox tez inkişaf edir. Deyək ki, 4 il əvvəl pilotsuz uçuş aparatlarına nadir hallarda rast gəlmək olurdu, indi isə ən aşağı rütbəli komandir də onsuz keçinmir.

**- Zamanında Rusiya Federasiyası Baş Nazirinin müavini Dmitriy Roqozin deyirdi ki, Azərbaycan An-124 "Ruslan" hərbi nəqliyyat təyyarəsinin əldə edilməsində maraqlıdır. Bu məsələdə irəliləyişlər var?**

- Hörmətli cənab Roqozin Azərbaycanın böyük dostudur. Biz onunla əməkdaşlıq etməkdən razıyıq.

**- An-124 "Ruslan" hərbi nəqliyyat təyyarəsi Azərbaycanın nəyinə gərəkdir, axı məsafələr elə də böyük deyil?**

- Niyə ki? Bizim blokada da olan Naxçıvanımız var. Bu, ona görə deyil ki, biz oraya silah-sursat daşıyırıq. Xeyr, məsələn, bu əhalinin ərzaqla, lazımi ləvazimatlarla təmin edilməsi üçün lazımdır. Biz həmçinin digər ölkələrdən də hərbi texnika alırıq, onları daşımaq lazımdır. Bizim Əfqanıstanda kontingentimiz var. Hərbi-nəqliyyat aviasiyası istənilən silahlı qüvvələrin vacib tərkib hissəsidir.

Və qeyd edim ki, hərbi satınalmalardan başqa texnikaya qulluq və ehtiyat hissələri məsələsi hər zaman mövcuddur. Bu baxımdan bizim böyük perspektivlərimiz var. Bizim Rusiya istehsalı olan çoxlu sayda həm nəqliyyat, həm də döyüş helikopterlərimiz, təyyarələrimiz, zirehli texnikamız var. Hazırda texniki qulluq məsələsi olduqca vacibdir. Bu istiqamətdə biz böyük işlər görürük, artıq nəticələr də var.

**- Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 qırıcılarının modernizə edilməsi də bu istiqamətə daxildir?**

- Bizim modernizə ilə bağlı bir çox məsələlərimiz var. Lazım olan bütün işlər görülüb.

**- Ermənistanda "İskəndər" raket komplekslərinin yerləşdirilməsi barədə məlumat vaxtilə böyük səs-küyə səbəb olmuşdur. Rəsmi Bakı bu cür komplekslərin və ya raketələyhinə müvafiq silahların alınması barədə Rusiyaya müraciət edibmi?**

- Düşünürəm ki, Azərbaycanın bu məsələ ilə bağlı Rusiya tərəfinə müraciət edib etmədiyi barədə danışmağa lüzum yoxdur. Ancaq Müdafiə naziri olaraq bildirirəm ki, sərəncamımızda həmin raketləri vura biləcək sistemlər var. Bizdə olan raketlər sayca düşmən raketlərindən 50 dəfə çoxdur. Dediyim sözlərə görə tam məsuliyyət daşıyıram. Əgər onlar bu raketləri tətbiq etmək fikrinə düşsələr, Ermənistanın infrastrukturuna və hərbi obyektlərinə endiriləcək cavab zərbəsinin necə olacağını təsəvvür edin!? Dünyada qoşunların tətbiq edilməsi taktikasının bir neçə növü var. Bəli, "İskəndər" yaxşı raketdir. Lakin bir sıra sual ortaya çıxır. Bu o raketlərin hansı növüdür, texniki vəziyyəti necədir, həmin raketləri kim idarə edir və nəhayət, ən əsası onu tətbiq etmək iqtidarında olacaqlarmı?

Hərbçi kimi biz hər zaman ən pis variantı nəzərdən keçiririk və ona hazırıq. Düzdür, Sizə haqqında yuxarıda bəhs etdiyim raketləri Rusiyadan almasaq da, onlar keyfiyyətcə geri qalmır. Və Sizə deyim ki, biz artıq vəziyyəti modelləşdirmişik və döyüş atışları da keçirmişik. Nəticə əladır! Bu gün biz əminliklə deyə bilərik ki, yaşayış məntəqələrimizi və hərbi obyektlərimizi havadan endirilən raket hücumundan qoruya bilərik.

**- Azərbaycan Müdafiə Nazirliyinin planında yaxın gələcəkdə rusiyalı həmkarları ilə birgə təlimlərin və tədbirlərin keçirilməsi varmı?**

- Var. Biz artıq üç ildir ki, Beynəlxalq Ordu Oyunlarında iştirak edirik. Bu, çox yüksək səviyyədə təşkil olunan tədbirdir. Biz tank biatlonunda iştirak etmişik, bizim komanda "Xəzər Kuboku"nda kifayət qədər yüksək yer tutub. Artıq bu il bu yarış Azərbaycanda keçiriləcək. Əgər əvvəllər bu oyunlarda Rusiya, Azərbaycan və Qazaxıstan iştirak edirdisə, bu il iştirakçıların sayı artacaq. Oyunlara həmçinin Türkiyə və İran da maraq göstərir. Axı, bu ənənəvi təcrübədir, əvvəlcə müşahidəçi, sonra isə iştirakçı qismində bir çox ölkələr yarışlarda təmsil olunmaq istəyirlər.

Bundan əlavə, biz Rusiya ilə Xəzər dənizində terrorizmlə mübarizə, xilasetmə fəaliyyətlərini məşq etdirən təlim keçirmişik. Bu normaldır, silahlı qüvvələrin inteqrasiyası, təcrübə mübadiləsi həyata keçirilir. Dost münasibətləri qurulur. Rusiyanın hərbi mütəxəssislərimizin təhsilində köməyini xüsusi olaraq qeyd etmək istərdim. Rusiyanın hərbi təhsil müəssisələrində Azərbaycandan olan çoxlu sayda kursant təhsil alır. Bunlar əsasən hava hücumundan müdafiə mütəxəssisləri, rabitəçilər və digərləridir.

(Ardı 4-cü səhifədə)

## "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

*Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə 2018-ci il iyunun 26-dək Azərbaycan Ordusunda həqiqi hərbi xidmət keçən və döyüş hazırlığında uğurlar qazanmış, habelə Azərbaycan Ordusundan ehtiyata və ya istefaya buraxılmış, Azərbaycan Ordusunun qurulmasında və möhkəmləndirilməsində fəal iştirak edən zabit, gizir, miçman və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

## "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

*Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, 37 mm x 50 mm ölçüdə düzbucaqlı və ona halqa və ilgək vasitəsilə birləşdirilmiş diametri 37 mm, şuaları olan səkkizguşəli lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli lövhənin üzərinə iki tərəfdən konturlanmış çevrəsi olan, səthi çevrə boyunca Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun mina ilə örtülmüş lövhə yerləşdirilmişdir.

2.2. Medalın mərkəzi çevrəsinin yuxarı hissəsində qövs boyunca "AZƏRBAYCAN", aşağı hissəsində "ORDUSU" sözləri yazılmış, kənarlarında sol tərəfdə "1918", sağ tərəfdə isə "2018" rəqəmləri təsvir edilmişdir.

2.3. Çevrənin mərkəzində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi həkk edilmişdir. Medalın mərkəzindən aşağıda emblemin alt tərəfində "100 il" yazılmışdır.




2.4. Səkkizguşəli ulduz və onun şuaları, çevrənin konturları, emblem, sözlər və rəqəmlər relyefli olaraq qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir, ortada "AZƏRBAYCAN ORDUSUNUN 100 İLLİYİ 1918-2018" sözləri və rəqəmləri relyefli yazılmışdır.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində səkkizguşəli ulduz relyefli təsvir edilmişdir.

Maddə 4. Medalın elementləri

4.1. Medalın paltara bərkidilmək üçün 37 mm x 50 mm ölçüdə düzbucaqlı elementi var.

4.2. Elementin yuxarı hissəsinə 40 mm x 5 mm ölçüdə düzbucaqlı lövhə bərkidilmişdir. Lövhənin üzərində relyefli palıd yarpaqları təsvir edilmişdir.

4.3. Elementin aşağı hissəsinə 40 mm x 9 mm ölçüdə beşbucaqlı lövhə bərkidilmişdir. Lövhənin mərkəzində relyefli aypara və ulduz təsvir edilmişdir.

4.4. Elementin üzərinə kənarlarından mərkəzə doğru ardıcıl olaraq 1 mm enində qızılı, 9 mm enində tünd yaşıl, 1 mm enində ağ və mərkəzdə hər birinin eni 5 mm olan Azərbaycan Respublikasının Dövlət bayrağı rənglərində şaquli zolaqlar təsvir edilmiş xara lent çəkilmişdir.

4.5. Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə olunur.

## Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun RİA Novosti informasiya agentliyinə müsahibəsi

(Əvvəli 3-cü səhifədə)

**- Siz ordu oyunları haqqında danışdınız. Bəs təlimlər necə? Bu il birlikdə nə isə keçirmək planlaşdırılıbmı?**

- Yox.

**- Bu nə ilə bağlıdır? Axı, Siz özünüz dediniz ki, bu terrorizmə qarşı mübarizədə birgə fəaliyyətə kömək edir?**

- Bu il Rusiya tərəfindən belə planlar yoxdur. Prinsipcə əgər belə bir dəvət olarsa, biz hazırıq.

**- Azərbaycan təşkilatçı kimi çıxış edə bilərmi?**

- Haqqında danışdığımız elə bu hərbi oyunlarda birlikdə çıxış edəcəyik. Amma indi hamının işi çoxdur. Bizim öz cəbhəmiz var, Rusiya Federasiyasının isə öz. Bizim təlimlər əsasən cəbhədə və döyüş şəraitinə maksimal uyğunlaşdırılmış vəziyyətdə keçirilir.

Azərbaycanla Rusiya arasında hərbi sahədə əməkdaşlıq misilsizdir. Təhsildən tutmuş silahların modernləşdirilməsinə qədər.

**- Hərbi-texniki sahədə əməkdaşlıq barədə müqavilə imzalanması planlaşdırılırmı? Belarus, Qazaxıstan və Qırğızıstanla bu cür müqavilələr mövcuddur. Bu müqavilələr Rusiya istehsalı olan silahların alınması və mütəxəssislərin öyrədilməsində həmin ölkələrə ciddi üstünlüklər verir...**

- Orada başqa amillər mövcuddur. Biz Rusiya silahlarını dünya qiymətlərinə uyğun alırıq. Amma sizin sadaladığınız ölkələr KTMT-nin üzvüdürlər. Mənim bildiyim qədər onlar silahları Rusiyanın daxili qiymətlərinə əsasən alırlar. Bizim dövlətlərarası hərbi-texniki əməkdaşlıq müqaviləmiz var, ölkələrarası komissiya da yaradılıb. Azərbaycan tərəfindən bu komissiyaya Baş Nazirin birinci müavini Yaqub Əyyubov, Rusiya tərəfindən isə Baş Nazirin müavini Dimitri Roqozin rəhbərlik edir. Bu komissiya ildə bir neçə dəfə toplanaraq hərbi-texniki əməkdaşlığın istiqamətlərini müəyyən edir. Bu iclaslarda ortaya çıxan məsələlər işgüzar qaydada həll edilir. Bu isə cari iş prosesidir. İstənilən halda qarşıya problemlər çıxır. Satan tərəf baha satmaq, alan tərəf isə ucuz qiymətə və daha yaxşısını almaq istəyir. Mən bunu obrazlı şəkildə, bizim komissiyaya aid etmədən deyirəm. Təbii ki, cari məsələlər həll edilir. Bugünkü günə Azərbaycan və Rusiya arasındakı müqavilədə nəzərdə tutulmuş silahların Azərbaycana gətirilməsi 90 faiz yerinə yetirilib.

Biz indi, artıq əlavə olaraq bəzi silah nümunələrini öyrənirik, sifariş veririk və sınaqdan keçiririk. Silah alınması çoxşaxəli məsələdir. Bir tərəfdən şablondan uzaq olmalı, digər tərəfdən isə müxtəliflik texnikaya qulluqda problemlərə səbəb olur. Bu çox mürəkkəb məsələdir.

**- Bu yaxınlarda Astanada Suriyadaxili danışıqların növbəti mərhələsi keçirildi və bu ölkədə deeskalasiya zonaları haqqında məsələ də müzakirə olundu. Rusiyanın xüsusi nümayəndəsi cənab Lavrentyevin sözlərinə görə, Rusiya bəzi MDB ölkələrinə həmin zonalarda atəşkəs rejiminə riayət edilməsinə nəzarət prosesində iştirak etməyi təklif edib. Azərbaycana belə müraciət olunubmu?**

- Siz, zəhmət olmasa, Müdafiə Nazirliyinə aid sual verin. Mən Müdafiə Nazirliyinə cavabdehəm.

**- Sualı başqa cür qoyaq. Suriyada deeskalasiya zonalarında atəşkəs rejiminə riayət edilməsinə nəzarət etməyə Azərbaycan Ordusu hazırdırmı?**

- Azərbaycan Ordusunun döyüş hazırlığı yüksək səviyyədədir. O, döyüş təcrübəsinə malikdir. 30 ilə yaxın bir müddətdə döyüşən ordunu təsəvvür edin. Bəli, bəzən gərginlik azalır, bəzən isə artır. Ancaq ordu səngərlərdədir. Mən bunu sırf nəzəri cəhətdən Azərbaycan Ordusunun imkanlarını qeyd etmək üçün diqqətinizə çatdırıram. Lakin onun harada və nə edəcəyi artıq siyasi məsələdir. Mən siyasətçi deyiləm və heç vaxt siyasətlə məşğul olmamışam. Amma Azərbaycan Ordusu istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Mən, Müdafiə naziri kimi döyüş hazırlığı səviyyəsini yüksək qiymətləndirirəm. Və bu tək mənim fikrim deyil.

**- Cənab nazir, Azərbaycan, Türkiyə və Gürcüstanın birgə üçtərəfli təlimləri artıq bir növ ənənəyə çevrilib. Bu istiqamətdə planlar necədir? Planlarla bağlı hər hansı bir konkret müddət varmı?**

- Konkret müddətlər barədə danışmaq hələ tezdir. Çünki bu və ya digər ölkədə gözlənilməyən hadisələr baş verir. Azərbaycan, Türkiyə və Gürcüstan Silahlı Qüvvələrinin qarşılıqlı əlaqələrini nəzərdə tutan birgə sənəd hazırlanır. Bu sənəd birgə təlimlərin keçirilməsini də nəzərdə tutur.

Belə ki, Türkiyə ilə Hərbi Hava Qüvvələri, xüsusi təyinatlı qoşunlar, motopiyada və tank bölmələri səviyyəsində birgə təlimlər artıq keçirilir. Eyni zamanda Gürcüstanın da iştirakı ilə üçtərəfli formatda "Eternity" komanda qərargah təlimləri də keçirilir.

Müdafiə nazirlərinin Batumidə keçirilən son görüşündə biz razılaşdıq ki, Gürcüstanı da Türkiyə ilə birgə keçirilən təlimlərə dəvət edək. İyun ayında Türkiyə ilə keçirilən birgə təlimlərdə, o cümlədən Gürcüstan silahlı qüvvələrinin nümayəndələri də iştirak edirdilər.

Söhbətimizin sonunda mən xüsusi qeyd etmək istərdim ki, Azərbaycanın Müdafiə Nazirliyi Rusiyanın Silahlı Qüvvələrini etibarlı strateji tərəfdar kimi görür və gələcəkdə onunla hərbi təhsil sahəsi, birgə tədbirlərin keçirilməsi və hərbi-texniki əməkdaşlıq məsələlərində əlaqələrin inkişaf etdirilməsinə hazırdır.

**- Cənab nazir, müsahibəyə görə çox sağ olun!**

- Mən də Sizə təşəkkür edirəm!

## İƏT Pİ-nin baş katibi Alxanlı hadisələri ilə bağlı bəyanat verib

*İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının baş katibi, professor Mahmud Erol Kılıç Ermənistan ordusunun Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində dinc sakinləri atəşə tutması ilə bağlı bəyanat verib.*

Milli Məclisin Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, bəyanatda iyulun 4-də Azərbaycan Respublikasının Füzuli rayonunun Alxanlı kəndində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribat hərəkətləri, 2 yaşlı Zəhra Quliyevanın və nənəsi Sahibə Allahverdiyevanın həlak olmaları, habelə daha bir mülki vətəndaş Sərvinaz Quliyevanın yaralanması və bir sıra mülki obyektlərin zərər görməsi ilə nəticələnən cinayət əməlləri kəskin şəkildə qınanılır.

Sənəddə İƏT Pİ-nin baş katibi həlak olanların ailəsinə başsağlığı verir, Azərbaycan xalqı, Parlamenti və Hökuməti ilə həmrəy olduğunu bildirir.

# ABŞ-ın ölkəmizdə yeni təyin olunan hərbi attaşesi Müdafiə nazirinə təqdim edilib

*İyulun 13-də Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə görüşüb.*



Görüşdə hər iki ölkənin silahlı qüvvələri arasında əməkdaşlığın perspektivləri, regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Azərbaycan ilə ABŞ arasında hərbi, hərbi-texniki, hərbi təhsil, mütəxəssislər səviyyəsində qarşılıqlı səfərlərin təşkili və treninqlərin keçirilməsi, həmçinin müdafiə, terrorizmə qarşı birgə mübarizə və sülhməramlı əməliyyatlar sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. İki ölkə arasında strateji səviyyədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edən tərəflər ABŞ tərəfindən Azərbaycanın icra etdiyi enerji layihələrinə göstərilən dəstəyin Amerika-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni zəmin yaradacağını vurğulayıblar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Müdafiə naziri bildirib ki, Ermənistan separatizmin, terrorizmin və ekstremizmin mənbəyidir. Bunun təkcə Azərbaycan üçün deyil, bütün region üçün təhlükə olduğunu qeyd edən nazir, bu təhlükənin qarşısının alınması üçün bütün beynəlxalq qurumların birgə fəaliyyət göstərmələrini diqqətə çatdırıb.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin Cənubi Qafqaz bölgəsinin inkişafı və təhlükəsizliyinin təmin edilməsi üçün vacib olduğunu bildirən amerikalı diplomat münaqişə nəticəsində həyatını itirən bütün insanların, xüsusilə də Alxanlı kəndində qətlə yetirilən mülki şəxslərin yaxınlarına dərin hüznlə başsağlığı verib.

Səfir ABŞ ilə Azərbaycan arasında ikitərəfli formatda və NATO proqramları çərçivəsində əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək Azərbaycanın Əfqanıstanda keçirilən sülhməramlı əməliyyatlara verdiyi töhfəyə görə minnətdarlığını ifadə edib. O, həmçinin KC-130 hərbi təyyarəsində çoxlu sayda amerikalı hərbçilərin həlak olması ilə bağlı ünvanlanan başsağlığına görə ABŞ-nın Müdafiə katibi və Silahlı Qüvvələrin Qərargah Rəislərinin Birləşmiş Komitəsinin sədrinin təşəkkürlərini general-polkovnik Zakir Həsənova çatdırıb.

Sonra səfir ölkəsinin Azərbaycanda yeni təyin olunan hərbi attaşesi polkovnik Adam Kavliki Müdafiə nazirinə təqdim edib.

Hərbi attaşeni Azərbaycanda missiyasına başlaması münasibətilə təbrik edən nazir ona ölkələrimizin Silahlı Qüvvələri arasında əlaqələrin genişləndirilməsi istiqamətində fəaliyyətində uğurlar arzulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Silahlı Qüvvələrin rabitə vasitələrinin texniki xidməti və təmiri mərkəzinin açılışı olub





Müasir və mobil ordunun idarəetmə sisteminin əsas elementlərindən biri olan rabitə vasitələrinin imkanlarının Silahlı Qüvvələrdə inkişaf etdirilməsi məqsədilə Ali Baş Komandanın tapşırığına əsasən fəaliyyətlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 13-də Müdafiə Nazirliyinin rəhbərliyi Silahlı Qüvvələrin rabitə vasitələrinin texniki xidməti və təmiri Mərkəzinin açılışında iştirak edib.

Müasir döyüşdə bölmələrin fasiləsiz, sabit, operativ və gizli idarə olunmasını təmin etmək məqsədilə komanda idarəetmə məntəqələrinin rabitə vasitələri əsas rol oynayır. Yaradılan mərkəzdə qoşunlarda istifadə edilən bütün növ stasionar və səyyar müasir hərbi kommunikasiya avadanlıqlarına texniki xidmət göstəriləcək və onlar qısa müddətdə tam təmir olunacaq.

Döyüşün idarə edilməsi üçün müxtəlif növ təkərli nəqliyyat vasitələrinin bazasında quraşdırılmış komanda qərargah maşınlarının təminatı, təyinatı, döyüş imkanları barədə Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin ərazisində yerləşən rabitə vasitələrinin cari və orta təmiri üçün nəzərdə tutulmuş laboratoriyalar, o cümlədən digər xidməti, inzibati otaqlar və anbarlara baxış keçirib.

Müdafiə naziri mərkəzin fəaliyyətinin və imkanlarının genişləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

## Azərbaycanın Müdafiə naziri ABŞ Müdafiə katibinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Missisipi ştatının Leflor əyalətində Dəniz Piyadaları Korpusuna məxsus KC-130 təyyarəsinin qəzası nəticəsində çoxlu sayda hərbi qulluqçunun həlak olması ilə bağlı Amerika Birləşmiş Ştatlarının Müdafiə katibi cənab Ceyms Mattisə başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Missisipi ştatının Leflor əyalətində Dəniz Piyadaları Korpusuna məxsus KC-130 təyyarəsinin qəzası nəticəsində çoxlu sayda hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən sarsıtdı.

Biz bu faciəli hadisədən çox kədərlənirik.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin."

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 iyul 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 82 millimetrlik minaatanlardan da (4 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 120 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, İcevan rayonunun Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Dövlətin və ordu rəhbərliyinin həyata keçirdiyi tədbirlər döyüş ruhunu daha da yüksəldir"

## Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin və psixoloqların təlim-metodik toplantısı keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi Silahlı Qüvvələrin döyüş hazırlığı planına əsasən, hərbi hissə və birləşmələrin şəxsi heyətlə iş üzrə komandir müavinlərinin və psixoloqlarının təlim-metodik toplantısı keçirilib.*



Əvvəlcə tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev toplantıda geniş məruzə ilə çıxış edərək cari ilin ötən yarım ili ərzində orduda şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsi istiqamətində görülən işlərdən və növbəti yarım ildə qarşıda dayanan əsas vəzifələrdən danışdı. "Bu gün Azərbaycanda ordu quruculuğu dövlətin siyasi kursunda əsas istiqamətlərdən biridir və Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin daha da gücləndirilməsi üçün mühüm tədbirlər həyata keçirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev birmənalı olaraq bəyan edir ki, torpaqlarımızın qeyd-şərtsiz işğaldan azad edilməsi dövlət rəhbərliyinin diqqət yetirdiyi ən vacib məsələdir. Buna görə də Azərbaycan Ordusunun şəxsi heyəti qarşıda duran ən mühüm vəzifəni - torpaqlarımızın son qarışına kimi işğaldan azad edilməsi vəzifəsini icra etməyə hər an hazır olmalıdır", - deyə idarə rəisi bildirdi ki, hərbi qulluqçuların Vətənə, dövlətə və xalqa sədaqət ruhunda tərbiyə edilməsi sahəsində əsas məsuliyyət hərbi hissələrdə şəxsi heyətlə iş üzrə zabitlərin və mənəvi-psixoloji tərbiyə işinə cavabdeh olan digər şəxslərin üzərinə düşür.

Sonra idarə rəisi toplantı iştirakçılarına Nazirlər Kabinetinin 2017-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin çıxışı barədə məlumat verərək bildirdi ki, dövlət başçısı yenə də bu tədbirdə ordu quruculuğu məsələlərinə toxunub və hərbi potensialımızın daha da gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. "Prezident, Ali Baş Komandan cənab İlham Əliyev qeyd etdi ki, biz bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərmişik. Heç kimə sirr deyil ki, dövlət rəhbərliyi tərəfindən ordunu gücləndirmək üçün vacib olan bütün tədbirlər görülür. Yeni müasir silah və texnikalar alınır, ordunun silahlanmasına ciddi fikir verilir. Cənab Prezidentin vurğuladığı kimi, yoxsul Ermənistandan fərqli olaraq biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və artıq Azərbaycanda da yeni hərbi texnikalar istehsal edilir. Bildiyiniz kimi, iki yeni hərbi zavod fəaliyyətə başlayıb. Bu gün Azərbaycan nəinki özünü silah-sursatlarla təmin edir, həmçinin xarici ölkələrə də bir çox adda hərbi məhsul ixrac edir."

Bu il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində Ermənistan tərəfindən törədilən hərbi təxribat nəticəsində iki dinc sakinin öldürüldüyünü və bir nəfərin yaralandığını diqqətə çatdıran general-mayor Rasim Əliyev qeyd etdi ki, düşmənin azğın hərəkəti yenə də cavabsız qalmadı. Azərbaycan Ordusunun həmin istiqamətdə yerləşən hərbi bölmələrinin cavab tədbirləri nəticəsində düşmənin çoxlu sayda itki verdiyini vurğulayan məruzəçi toplantı iştirakçılarının diqqətinə çatdırdı ki, dövlət başçısı da Nazirlər kabinetində çıxışı zamanı bu məsələdən ətraflı danışıb və ordunun fəaliyyətini yüksək qiymətləndirib. "Alxanlı kəndində baş verən hadisə hərbi cinayətdir və erməni faşizminin növbəti qanlı təxribatıdır. Bu cinayətə görə artıq Ermənistan öz cavabını almışdır. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bir daha bütün dünyaya göstərdi".

Silahlı Qüvvələrdə aparılan mənəvi-psixoloji tərbiyə işinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinin vacibliyini açıqlayan idarə rəisinin sözlərinə görə, ordunun şəxsi heyəti döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlmək üçün ən yüksək mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməlidir. "Vətənə sədaqətli, dövlətə və xalqa sıx tellərlə bağlı olmaq hərbi qulluqçunun əsas mənəvi xüsusiyyətləridir. Qəlbində Vətən sevgisi olmayan əsgər heç vaxt döyüş vəzifəsinin öhdəsindən gələ bilməz. Nə qədər müasir silah-sursat olsa belə, onu idarə edən insan beynidir. Məhz bu baxımdan Azərbaycan əsgəri tarixi düşmənlərimizi yaxşı tanımalı, onların zaman-zaman xalqımıza qarşı törətdiyi faciələrdən, vəhşiliklərdən məlumatlı olmalıdır. Məsələn, elə bu günlərdə erməni silahlı birləşmələri tərəfindən Alxanlı faciəsi törədildi, düşmən 18 aylıq məsum Zəhranı qətlə yetirdi. Bu, heç bir insanlığa sığmayan vəhşilikdir. Yeri gəlmişkən, bir faktı diqqətə çatdırım ki, Qarabağ münaqişəsi dövründə 225 uşaq erməni xislətinin qurbanı olub. Bütün bunları ona görə xüsusi qeyd edirəm ki, hərbi qulluqçularımız hər gün, hər an düşməndən intiqam almağı düşünməli və özünü buna səfərbər etməlidir".

Çıxışına davam edən idarə rəisi qeyd etdi ki, şəxsi heyətin döyüş ruhunun artırılması üçün bilavasitə məsuliyyət daşıyan mənəvi-psixoloji tərbiyə sahəsində çalışan zabitlərin bilik və vərdişlərinin artırılması da diqqət mərkəzində olmalıdır. "Xüsusən bölük komandirlərinin şəxsi heyətlə iş üzrə komandir müavinləri vəzifələrinə təyin edilən gənc zabitlərin hazırlıq səviyyəsi yüksəldilməli, onların yetərincə təcrübə qazanmasına şərait yaradılmalıdır. Bu məqsədlə həmin sahədə xidmət edən təcrübəli zabitlər öz vərdişlərini gənc həmkarlarına aşılayaraq onların da qısa vaxtda peşəkarlıq qazanmalarına kömək etməlidirlər. Hər bir bölük komandirinin müavini özünün yüksək mənəvi keyfiyyətləri ilə hərbi kollektivdə şəxsi nümunə olmalıdır".

General-mayor Rasim Əliyev toplantıda çıxışı zamanı bir məsələni də qeyd etdi ki, döyüş tapşırıqlarının yerinə yetirilməsində kiçik komandir heyəti kimi məsuliyyət daşıyan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının mənəvi-psixoloji hazırlıq səviyyəsinin artırılmasına ciddi fikir verilməlidir. Onun sözlərinə görə, bilavasitə ön xətdə döyüş növbətçiliyinin həyata keçirilməsi üçün manqa komandirləri məsuliyyət daşıyırlar, məhz bu baxımdan onların hazırlıqlı, vətənpərvər döyüşçü kimi zəruri keyfiyyətlərə malik olmaları böyük əhəmiyyət kəsb edir.

"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ölkəmizin hərbi potensialının dəfələrlə artırılmasından danışarkən qeyd edib ki, biz tarixi torpaqlarımızda ikinci bir erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik və bu məqsədlə ordunun döyüş qabiliyyəti durmadan artırılmalıdır. Dövlət rəhbərimizin ordu quruculuğu siyasəti şəxsi heyətə geniş təbliğ edilməli və qarşımızda qoyulan tarixi vəzifənin məsuliyyəti hərbi qulluqçulara dərindən aşılanmalıdır. Hər kəs aydın dərk etməlidir ki, dövlətin və xalqın orduya inamı böyükdür, bu gün Azərbaycan cəmiyyətində hamı Vətənimizin düşməndən etibarlı şəkildə müdafiə olunmasına inanır və yaxşı bilir ki, doğma torpaqlarımızın işğaldan azad edilməsi üçün hərbi qulluqçularımız döyüş əmrini yerinə yetirməyə hər an hazırdırlar".

Toplantı öz işini məruzə ətrafında müzakirələrlə davam etdirdi. Çıxış edən zabitlərdən polkovnik Elşad Əbilov, polkovnik-leytenantlar Rasim Manafov, Babək Səmidli və başqaları mənəvi-psixoloji tərbiyə işinin səmərəliliyni artırmaq üçün hərbi hissə və bölmələrdə həyata keçirilən tədbirlərdən söz açdılar, həmçinin bu və ya digər mövzularla bağlı təklif və mülahizələrini bölüşdülər.

Qeyd edildi ki, keçirilən hər tədbir mahiyyəti etibarilə mənəvi-psixoloji hazırlığın yüksəldilməsinə, əsgər və zabitlərin döyüş ruhunun artırılmasına xidmət edir. Zabitlərimiz tədbirlərdən sonra bu istiqamətdə konkret söhbətlər aparır, vətənpərvərlik hisslərini mənəvi-psixoloji hazırlığın əsasına çevirir. Məlum həqiqətdir ki, mahiyyətli, məzmunlu tədbir, özlüyündə, geniş auditoriya üçün oxunan məruzə təsirindədir. Biz bunun əsasında təsirli söhbətlər aparmaqla dövlət başçısının, Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyduğu vəzifələri uğurla həll edə bilərik. Bu, bizim xidməti borcumuzdur.

Azərbaycan Respublikası Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev toplantı iştirakçıları qarşısında çıxış edərək belə tədbirlərin keçirilməsi zərurətini və hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitlərinin, həmçinin psixoloqların təcrübi vərdişlərinin artırılmasında onların əhəmiyyət kəsb etdiyini vurğuladı. Nazir müavini ordunun döyüş qabiliyyətinin gücləndirilməsi məqsədilə dövlətin və ordu rəhbərliyinin həyata keçirdiyi tədbirlərdən söhbət açaraq əmin olduğunu bildirdi ki, şəxsi heyətin döyüş ruhunun daha da artırılması üçün, komandirlərin şəxsi heyətlə iş üzrə komandir müavinləri də üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün məsuliyyət hisslərini daha da artıracaqlar.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müstəqil Azərbaycanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

## Silahlı Qüvvələrdə Ümummilli Liderimizin hakimiyyətə gəlişinin ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir

*Müdafiə nazirinin tapşırığına əsasən, Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və hərbi hissələrdə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 48-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir.*



Vaxtilə Ulu Öndərin Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi qonağı olduğu hərbi hissədə unudulmaz liderimiz ehtiramla yad edilib, büstü qarşısına gül dəstələri qoyulub və ictimaiyyət nümayəndələrinin iştirakı ilə təntənəli mərasim təşkil edilib.

Əməkdar İncəsənət Xadimi Abdulla Qurbaninin Ulu Öndərə həsr etdiyi kitablar sərgilənib. Müəllif Heydər Əliyevlə görüşlərindən danışıb və hər bir kitab haqqında ətraflı məlumat verib. "Heydər Əliyev və Azərbaycan Ordusu", "Mənim Hərbi Liseyim", "Heydər Əliyev məktəbi", "Müasir Azərbaycan Ordusunun memarı", "Naxçıvan Qarnizonunda Heydər Əliyevlə unudulmaz görüşlər", "Yolumuz Heydər Əliyev yoludur", "Otuz ilin sevinci" və digər kitablar tədbir iştirakçılarında böyük maraq oyadıb.

Tədbirdə Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev "Heydər Əliyev müasir Azərbaycan Ordusunun memarıdır" mövzusunda məruzə ilə çıxış edib.

Qeyd olunub ki, hələ ötən əsrin 70-ci illərində Sovet İttifaqı zamanı vahid ordunun olduğu bir dövrdə Ulu Öndərimiz Azərbaycan övladları üçün Cəmşid Naxçıvanski adına hərbiləşdirilmiş xüsusi orta məktəb yaratmaq qərarını qəbul edib. Bu təşəbbüsün Moskvada etirazla qarşılanmasına və məktəbin bağlanılması haqqında dəfələrlə göstərişlər verilməsinə baxmayaraq, Heydər Əliyevin iradəsi ilə məktəb fəaliyyətini davam etdirib, gələcəkdə müstəqilliyini bərpa edəcək Azərbaycanımızın Ordusunun zabit korpusu üçün bünövrə qoyulub. Xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı xüsusi təyinatlı təhsil ocağının yaradıcısı sonralar böyük fəxrlə deyəcəkdir: - 1971-ci ildə mən Azərbaycanın gələcəyini düşünərək Bakıda xüsusi bir hərbi məktəbin yaranmasına nail oldum. Mən indi düşünürəm, əgər bu hərbi məktəb olmasa idi, bizim ordumuzdakı o zabitlərin çoxu yəqin olmayacaqdı. Çünki bu zabitlərimizin çoxu həmin məktəbin yetirməsidir.

General-mayor R.Əliyev Heydər Əliyevlə bağlı xatirələrini yada salaraq, 2002-ci ilin iyun ayının 17-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında (bu filial əsasında Heydər Əliyev adına Hərbi Lisey yaranıb və bu tədris ocağı Ümummilli Liderimizin adının əbədiləşdirildiyi ilk ünvandır) onunla görüşünü xatırlayıb, müasir mütəşəkkil ordumuzun yaranmasında müstəsna xidmətlərindən bəhs edib.

Nəzərə çatdırılıb ki, Ulu Öndər 90-cı ilin əvvəllərində Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi zaman, Milli Ordu mövcud olmadığı bir vaxtda Naxçıvanı erməni təcavüzündən qorumaq məqsədilə Naxçıvan Milli Müdafiə Komitəsini yaradıb və bu qurumun bazasında gücləndirilmiş əlahiddə briqada və bir neçə il öncə isə dahi liderin arzuları reallaşaraq artıq Əlahiddə Ümumqoşun Ordu formalaşıb.

Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycan hakimiyyətinə qayıdışından sonra vahid mərkəzdən idarə olunan nizami ordu yaranıb və ordu quruculuğu prosesi bu gün Ümummilli Liderimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli qeyd edib ki, 48 il öncə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə ölkəmiz tərəqqi və inkişaf mərhələsinə qədəm qoyub. Respublika fəalları, bütün xalq Vətənimizin daha da çiçəklənməsi naminə səfərbər edilib. Az bir vaxt ərzində ölkəmiz sözün həqiqi mənasında əsl quruculuq, yarış meydanına çevrilib. Azərbaycan neftçilərinin, metallurqların, fabrik, zavod fəhlələrinin, kənd təsərrüfatı işçilərinin əldə etdikləri yüksək nailiyyətlər xalqın sosial həyat tərzinin, gün-güzəranının daha da yaxşılaşmasına şərait yaradıb. Şəhərlər inkişaf edib, kəndlər, qəsəbələr simasını dəyişib, Bakı görünməz dərəcədə genişlənib. Yeni-yeni yollar çəkilib, körpülər salınıb, su dəryaçaları yaradılıb, əsrlərlə insan ayağı dəyməyən susuz səhralara yeni həyat bəxş edilib.



Millət vəkili bildirib ki, bəlkə də bunlar bu gün adi görünə bilər, ancaq o illərdə bütün bunlar inqilab idi - Heydər Əliyev epoxasının quruculuq inqilabı.

Respublikanın Xalq Artisti, Respublika Dövlət mükafatları laureatı, professor Amaliya Pənahova: - Heydər Əliyevin Azərbaycan hakimiyyətinə gəlişi ilə xalqımızın mənəvi həyatında mühüm dəyişikliklər yarandı. Elm, mədəniyyət, incəsənət, ədəbiyyat dinamik sürətlə inkişaf etdi. Keçmiş SSRİ-nin bütün respublikalarından nümayəndələr Azərbaycandan mənəviyyat dərsi almaq üçün Respublikamızda keçirilən mənəvi tərbiyənin aktual problemlərinə həsr olunmuş elmi-praktik konfranslara gəldilər. Azərbaycanın neçə-neçə görkəmli sənətkarı məhz Heydər Əliyevin sayəsində o dövrün ən yüksək fəxri adlarına, mükafatlarına layiq görüldü, - deyib.

Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev Heydər Əliyevin 1993-cü ilin noyabrında xalqa müraciətindən sonra onun səsinə ilk səs verdiklərini, iki gün sonra Ulu Öndərlə görüşdüklərini və dahi rəhbərin xeyir-duası ilə cəbhə bölgəsinə yola salındıqlarını xatırlayıb və bu gün də Azərbaycan naminə bütün veteranların Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bəyan edib.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifasında Ulu Öndərə həsr olunmuş mahnılar və şeirlər ifa edilib. Təntənəli mərasim bütün iştirakçıların ifa etdiyi "Zəfər marşı" ilə başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

# Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi-vətənpərvərlik mövzusunda tədbir keçirilib

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin yeni layihəsi olan "Məsum Zəhra" elegiyasının təqdimatı keçirilib.*




İyul ayının 4-də Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində həlak olmuş yaşayarımlıq Zəhra Quliyevanın timsalında erməni vandalizminin qurbanı olan günahsız körpələrin xatirəsinə həsr edilmiş əsərin sözləri layihə müəllifinə, bəstəsi və aranjimanı isə Fərahim Sadiqə məxsusdur. Elegiya Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solist-vokalçılarından olan Əməkdar Artist Cahangir Qurbanovun və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin əsgər xorunun ifasında lentə alınıb.

Əlahiddə Ümumqoşun Ordunun, qoşun növləri və qisimlərinin, eləcə də birlik, birləşmə, hərbi hissələrin şəxsi heyətlə iş üzrə komandir müavinlərinin, psixoloqların iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin erməni təcavüzü nəticəsində öldürülən dinc əhalinin-uşaqların, qocaların, qadınların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək bildirib ki, 200 ildən çoxdur ki, ermənilərin əli ilə azərbaycanlılara qarşı qəddar soyqırımı siyasəti aparılır. İki əsrdən çox davam edən bu soyqırımlar nəticəsində minlərlə azərbaycanlı amansız işgəncələrlə qətlə yetirilib, yaşayış məntəqələri yerlə-yeksan edilib, etnik təmizləmə və erməni təcavüzü nəticəsində yüz minlərlə soydaşımız öz doğma yurdlarından didərgin salınıb. Cəzasız qalan erməni faşistləri "Böyük Ermənistan" xülyası ilə bu gün də öz mənfur niyyətlərindən əl çəkmir, insanlığa sığışmayan vəhşiliklər törədirlər. Xocalı, Qaradağlı, Malıbəyli, Meşəli faciələri və bir neçə gün öncə Füzuli rayonunun Alxanlı kəndinin ermənilər tərəfindən minaatan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində günahsız körpə Zəhra Quliyevanın və onun nənəsinin həlak olması, bir nəfərin isə ağır xəsarət alması erməni qəddarlığının davamıdır.

Nəzərə çatdırılıb ki, Silahlı Qüvvələrimiz tərəfindən görülən adekvat tədbirlər nəticəsində düşmən yenə də susdurulub, az sonra isə Ermənistan ordusunun döyüşə hazırlıq vəziyyətinə gətirilən qüvvələrinə qarşı dəqiq atəş zərbələri endirilib. Dinc əhaliyə və şəxsi heyətə qarşı düşmənin istənilən fəaliyyətinin qarşısını dərhal almaq və onun atəş nöqtələrini cavab zərbələri ilə susdurmaq üçün qoşunlarımız hazır vəziyyətdədir.

General-mayor R.Əliyev qeyd edib ki, müharibədən ən çox əziyyət çəkən dinc əhali, xüsusilə də gələcəyimiz olan uşaqlardır. Qarabağ müharibəsinin yenidən şiddətləndiyi 90-cı illərdən başlayaraq, bu günə kimi 225 nəfərdən çox uşaq erməni vandalizminin qurbanı olub. Bu, Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn, konvensiyaların, bəyannamələrin kobud şəkildə pozulmasıdır. Onlar dinc əhalini hədəfə almaqla Azərbaycanı yenidən müharibəyə təhrik etmək, sülh səylərimizi pozmaq məqsədi güdürlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdikləri bu hərbi cinayətlərə görə gec-tez beynəlxalq birlik qarşısında cavab verəcək, öz layiqli cəzalarını alacaqlar.

İdarə rəisi ölkə rəhbərliyinin apardığı uğurlu xarici siyasət, Müdafiə, Xarici İşlər Nazirliklərinin birgə fəaliyyəti, qeyri-hökumət təşkilatlarının, ictimaiyyətin fəallığı sayəsində Alxanlı faciəsinin beynəlxalq qurumlarındı artıq hərəkətə gətirdiyini bildirib. Vurğulanıb ki, nəhayət, dünya erməni vəhşiliyini, erməni vandalizmini pisləyir və onları bu təxribatlardan tez bir zamanda əl çəkməyə çağırır. Təqdim edilən layihə də erməni vandalizminə qarşı tutarlı cavabdır və gənclərdə Vətənə, dövlətə sevgi, düşmənə nifrət hissinin aşılanmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Müdafiə Nazirliyinin zabiti A.Qurbani layihənin ideyası, məzmunu barədə ətraflı məlumat verərək yaradıcı qrupu tədbir iştirakçılarına təqdim edib, Müdafiə Nazirliyi nəzdində Sənədli və Tədris Filmləri Kinostudiyasında bu elegiyanın motivləri əsasında "Məsum Zəhra" qısametrajlı filminin artıq çəkilişlərinə başlanıldığını nəzərə çatdırıb.

Əməkdar Artist Cahangir Qurbanov və əsgər xorunun ifasında elegiya tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Milli Məclis sədrinin müavini, ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova bütün xalqımız kimi onun da Alxanlı faciəsindən, dinc əhalinin atəşə tutulmasından sarsıldığını bildirib, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığına əsasən, bu məsələnin tez bir zamanda beynəlxalq aləmdə ictimailəşdirilməsi istiqamətində görülən işləri müsbət dəyərləndirib.

ATƏT PA-nın Minskdə keçirilən 26-cı sessiyasında ermənilərin Alxanlıda törətdikləri təxribat barədə ətraflı məlumat verdiyini, Qarabağ probleminin həlli üçün ATƏT-in institutları ilə koordinasiya olunmuş şəkildə fəaliyyət göstərərək bu kimi hərəkətlərə son qoyulması ilə bağlı təkliflər irəli sürdüyünü də vurğulayan Mlli Məclis sədrinin müavini Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dərhal cəbhə bölgəsinə getməsi, zərərçəkənlərin ailələrinə baş çəkməsi və faciə qurbanlarına ehtiramını bildirməklə, onların doğmalarının kədərinə şərik olmasının cəbhəboyu rayon əhalisi tərəfindən minnətdarlıqla qarşılandığını qeyd edib. Füzulidən olan seçicilərinin minnətdarlığını bir daha Müdafiə Nazirliyinin rəhbərliyinə çatdırıb, füzulililərin Ali Baş Komandanın ətrafında daha sıx birləşdiklərini, ölkə başçısının müdrik və qətiyyətli siyasətinə, güclü ordumuza arxalandıqlarını bəyan edib.



Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının gündən-günə daha da yüksəldiyindən fərəh hissi ilə danışan B.Muradova hərbi qulluqçuların vətənpərvərlik, Vətənə, dövlətə sədaqət ruhunda formalaşması, eləcə də mülki əhalinin bu istiqamətdə tərbiyə olunması məqsədi ilə Müdafiə Nazirliyinin yerli İcra hakimiyyəti orqanları ilə birgə fəaliyyətini xüsusi ilə qeyd edib, iştirakçısı olduğu "Horadizdə zəfər yürüşü", "Sənə inanırıq ölkə rəhbəri, sənə güvənirik Vətən əsgəri!" tədbirlərini xatırlayıb.

Təqdim edilən elegiyanın aktuallığını və böyük əks-səda doğuracağına əminliyini bildirən millət vəkili yaradıcı heyətə uğurlar arzulayaraq deyib: Ermənistan birdəfəlik dərk etməlidir ki, cari status-kvoya güvəndikcə öz müstəqilliyini, gələcəyini təhlükə altında qoyur və regionda siyasi oyunların yenə də alətinə çevrilir. Onlar öz murdar niyyətlərindən nə qədər tez əl çəksələr, işğal olunmuş əzəli Azərbaycan torpaqlarını boşaltsalar, erməni xalqı üçün bir o qədər önəmli olacaqdır.

Cəbhə bölgəsindən gələn zabit Elşad Əbilov faciə baş verən günü xatırlayaraq yerli əhalinin əsl vətənpərvərlik, təmkin, dözüm nümayiş etdirdiyini, bir nəfərin də kəndi tərk etmədiyini və əli silah tutan hər kəsin intiqam hissi ilə coşduğunu və döyüşçülərə qoşularaq düşmənə qarşı vuruşmağa hazır olduqlarını qeyd edib.

Filologiya elmləri doktoru, professor, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitunun şöbə müdiri Asif Rüstəmli Müdafiə Nazirliyinin bu kimi layihələrinin həmişə aktual və əhəmiyyətli olduğundan danışıb.

Elegiyanın sözləri ilə musiqisinin bir-birini tamamladığını, ifaçının peşəkarlığını və əsərin ümumilikdə qırğına, terrora, erməni vandalizminə qarşı etiraz notası olduğunu qeyd edən tədqiqatçı-alim "Məsum Zəhra" qısametrajlı filminin tezliklə başa çatacağına və geniş tamaşaçı auditoriyasına çıxarılacağına əminliyini bildirib.

Qonaqlara və tədbir iştirakçılarına "Məsum Zəhra" elegiyası yazılmış disklər təqdim edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 313
Nüsxə 4600